STAD
SANAL TÜRKOLOJİ ARAŞTIRMALARI DERGİSİ

# AĞBABA ŞİVƏSİNDƏ SƏS ARTIMI VƏ SƏSDÜŞÜMÜ

**Arzu BAYRAMOVA** *

**Özet**

Bu makalede Ağbaba diyalektiğindeki fonetik ses ekleme ve düşmeleri incelenmektedir.

**Anahtar Sözcükler**:

Ses düşmesi, ses eklenmesi, diyalekt, Ağbaba diyalekti.

**Abstract**

In the paper the phonetic processes of elision (dropping of a sound) and proterring (adding a sound) are learned on the concrete examples of Aghbaba dialect.

**Key Words**:

proterring, dropping, dialect, Ağbaba dialect.

## Giriş

Bir çox türk dillərinin dialekt və şivələrində olduğu kimi, Azərbaycan dilinin dialekt və şivələrində də səsartımı və səsdüşümü fonetik hadisə kimi geniş əks olunur. Azərbaycan dilinin Ağbaba şivəsində həm sait, həm də samit səslərin söz əvvəlində, söz ortasında və söz axırında səsartımı və səsdüşümü hadisələri daha çox özünü göstərir. M.Şirəliyevin qeyd etdiyi kimi, səsartımı və səsdüşümü hadisələrində sözün qədim fonetik forması özünü göstərir.

Ağbaba şivəsində bəzi samit səslərin artımı və düşümü aşağıda qeyd olunan məqamlarda nəzərə çarpır.

## Samit Səslərin Artımı

### *a) Söz əvvəlində samit səslərin artımı*

h səsinin artımı: araba-harava, açar-haçar, əlbət-həlbət, indi-himdi, elə-helə, əlbəttə-həlbətdə, asan-hasand, əfçi-həfçi və s.

y səsinin artımı: alov-yaloy, aldatmaq-yallatmaq, ürəkli-yürəkli, iqbal-yığval, eniş-yeniş, enmək-yenməx', ilxı-yılxı və s.

Müasir türk dilində söz əvvəlində y səsinin işlənməsi çox müşahidə olunur: yıldız, yürək və s.

---

* Sumqayıt Dövlət Universiteti

Söz əvvəlində y səsinin artımı daha qədim hadisə olaraq türkmən (yiqit, yüzük, yürək, yıl və s.), başqırd (yılan) yöz, yörək və s.) və digər türk dillərində də mövcuddur (5.70).

***b) Söz ortasında samit səslərin artımı***

Ağbaba şivəsində də Qərb qrupu dialekt və şivələrində olduğu kimi söz ortasında, xüsusilə alınma sözlərdə iki samit arasında y samitinin işlədilməsi ən çox alınma sözlərdə müşahidə edilir. Zəif-zayıf, qeyb-qayıb, faiz-fayız, teatr-tiyatr və s.

Bunlardan başqa, fars mənşəli –bi şəkilçisindən sonra da y səsi işlənir. Bisavad-beysavat, biqeyrət-beyqıryat, bixəbər-beyxavar, binamus-beynamus və s.

Söz ortasında h səsinin də artımı mövcuddur. Məsələn: sahat, camahat və s.

***c) Söz axırında samit səslərin artımı***

Söz sonunda səs artımı əsasən zərf, qoşma bağlayıcı və feli bağlamalarda rast gəlinir.

n səsinin artımı: ki-kin, axşam çağı-axşamçağın, dəfə-dəfən, getdikcə-getdikcən, indiyəcən-hindiyəcən, qabaxca-qabaxcan, bilirdi kin, yazırdı kin, ruscan, kimin (əvə kimin), palto-baldon və s.

x səsinin artımı: dalınca-dalıncax, alınca-alıncax, farsca-farscax və s.

x' (iy) səsinin artımı: türkcə-türcəx', gəlincə-gəlincəx' və s.

t səsinin artımı: asan-hasant, saban-sapant, kran-krant və s.

y səsinin artımı: avtomobil-avtoy, çanta-çantoy, kino-kinoy, kilo-kiloy, qırov-qıroy və s.

m səsinin artımı: keşkə-keşkəm, bəlkə-bəlkəm, sonra-sōram və s.

## Samit Səslərin Düşümü

Qərb dialektində olduğu kimi, Ağbaba şivəsində də söz əvvəlində, söz ortasında və axırında y, k, h səsləri düşür.

***a) Söz əvvəlində samit səslərin düşümü***

y səsinin düşümü: Yusif-Usuf, yumruq-umrux, yiyə-iyə, oyana-oana, bu yana-buana, yumurtda-murtda və s.

h səsinin düşümü: Söz əvvəlində h səsinin düşümü əsasən ö, ü dodaqlanan sait səslərdən sonra baş verir. Məsələn:

Hörümçək-örümçəx, hürümək-ürməx, hürkdü-ülükdü, hörmət-örmət, hıcqırıx-ışqırıx və s.

g səsinin düşümü: Onu gördüm -onu yördüm, yola gedir - yola edir, ağlıma gəlir - ağlıma əlir, nə gəzirsən - nə əzirsən, onu gördüm – onu ördüm və s.

Göründüyü kimi, tərkib daxilində birinci söz saitlə bitdikdə ikinci sözdəki g səsi düşür.

Zaqatala-Qax şivəsində, eləcə də qaraçay, bolqar, qaqauz və Bolqarıstan ya-şa¬yan türklərin dialektlərində də söz əvvəlində samit düşümü mövcuddur (6.154, 233).

***b) Söz ortasında samit səslərin düşümü***

y səsinin düşümü əsasən iki səsli arasında özünü göstərir. Məsələn: Göyərçin-göərçin, göyərdi-göərdi, böyən-böən, toyux-toux, soyux-soux, qayçı-qəçi, böyələk-böələx, o yana-oana, bu yana-buana, qaya-qā və s.

v səsinin düşümü: suvamaq-suamax, duva-dua, ovuc-ouc, dovğa-dōğa, dovşan-dooşan, əvvəl-əvəl və s.

h səsinin düşümü: Söz ortasında h səsinin düşümü bir neçə alınma sözdə ş, s, və f səslərindən əvvəl təsadüf edilir. Məsələn: Şahüseyn-Sasöyün, Şahvələd-Şavələt, vəhşi-vəşi, təhvil-təfil, məhsul-məsul, təhsil-təsil və s.

g səsinin düşümü: qara göz-qaraöz, bu gün-böün və s. Göründüyü kimi, söz birləşmələrinin bir vurğu ilə tələffüzü II sözdəki g səsinin düşməsinə şərait yaradır.

f səsinin düşümü: öfkə bağlamaq-ökə bağlamax, tüfəng-tüəng, sifət-suat və s.

r səsinin düşümü: qurtardı-qutardı, götür-götü, bir şey – bi şey, bir dənə - bi dənə, xərclik-xəclik, gətirmək-gətiməx' və s.

l səsinin düşümü: altmış-atmış, anlamadım-annamadım, dilmanc-dimanc və s.

n səsinin düşümü: Bu səs düşümü əsasən p, c, n, t, k, s samitlərindən əvvəl özünü göstərir. Məsələn: Kənd-kət, qılınc-qılıc, qazanc-qazaş, sonra-sora, rəncbər-irəşbər, tüfəng-tüfəx, onlar – olar, bunlar – bular və s.

m səsinin düşümü: M səsinin düşümü az da olsa mövcuddur. Məsələn: amma-əmə//ama, aman-əman.

***c) Söz axırında samit səslərin düşümü***

Söz axırında samit səslərin düşümü Ağbaba şivəsində r, l, m, c, v, t samit səslərinin düşümündə özünü göstərir.

r səsinin düşümü: bu qədər-bu qədə, gətir-gəti, götür-götü, otur-otu və s. Bunlardan başqa, -dır, -dur, -dür, -dir xəbər şəkilçisində də r səsi çox vaxt düşür. Məsələn: azdır-azdı, çoxdur-çoxdu, Məmməddir-Məmməddi, otdur-otdu, qusdur-qusdu və s.

t səsinin düşümü: Söz axırında t səsinin düşümü əsasən iki kar samitin yan-yana tələffüz etmək çətinliyindən irəli gəlir. Məsələn: bu vaxt-buvax, dəst-dəs, dost-dos və s. Göründüyü kimi, s və x səslərindən sonra alınma sözlərdə t səsi düşür. Əlbəttə bir çox türk dillərində (özbək, türkmən, türk və s.) t səsinin düşümü mövcuddur.

q və l səslərinin düşümü: q və l səslərinin düşümü çox az miqdarda sözlərdə vardır. Məsələn: gəl-gə, deyil-döyü, çıraq-çıra, qalxmax-qaxmax və s.

h səsinin düşümü: məhsul-məəsul, vəhşi-vəəşi və s.

y səsinin düşümü: qaya-qaa, çaya-çaā, saya-sā, qoy-qo və s.

Müasir türkmən dilində də samit səslərin (6.141) düşməsi geniş yayılıb. Məsələn: bol-ol, qan-an və s.

**Sait Səslərin Artımı**

Ağbaba şivəsində söz əvvəlində sait səslərin artımı çox geniş müşahidə edilir. Səsartımı əsasən alınma sözlərə aid olub st, sd, sk, sn, şk, sb, st qoşa samitlərdən və r, bəzən də t, s səslərindən əvvəl baş verir (8.26). Belə səsartımı sözün əvvəlində, ortasında və axırında mövcuddur.

***a) Söz əvvəlində sait səslərin artımı***

i səsinin artımı: spiçka-ispişka, stəkan-istəkan, stol-istol, Mirzə-İmirzə, Ramazan-İramazan, Rəhim-İrəhim, rahat-irahat və s. Bu formada səsartımı Qarsın Arpaçay kəndlərinin şivəsində də çox yayılmışdır (1.25).

ı səsinin artımı: rast-ırast, şkaf-ışkaf, rayon-irayon, Rza-Irza, razı-ırazı, stol-ıstol.

ü səsinin artımı : üşşə, ümmət, ürkməx' və s.

u səsinin artımı: stol-ustol, rüzgar-uruzgar, rusca-urusca, Rövşən-Urşan, Rüstəm-Urustam, rus-urus, Ruqiyə-Urqiyə və s.

Göründüyü kimi, əsasən alınma sözlərdə söz əvvəlinə sait səs artırılır.

***b) Söz ortasında sait səslərin artımı***

Belə səsartımı əsasən cingiltili və ya kar samitlə sonor səslər arasında özünü göstərir. Məsələn:

Dırmıx-dımırıx, səbr-savır, qəbr-qavır, qorxmaq-qoruxmax, qırx-qırıx, qalxdı-qalıxdı, kürk-kürük, qulplu-quluflu, fəhm-fəhəm, vaxt-vaxıt, ötrü-ötürü, ülkdü-ülükdü və s.

Həm alınma sözlərdə, həm də türk mənşəli sözlərdə qoşa samitin tələffüzünü ahəngə salmaq üçün söz ortasına tələffüzdə səs artırılır.

***c) Söz axırında sait səslərin artımı***

Qərb qrupu dialekt və şivələrində olduğu kimi, Ağbaba şivəsində söz axırına sait artımına az təsadüf edilir. Məsələn:

Metr-metrə, bu qədər-buxartana, o qədər-oxartana, nə qədər-naxartana, bu qədər-bu qədərə, bekar-bekara, tək-təkə-seyrəx', həm-həmi, kino-kinoy və s.

Göründüyü kimi, söz axırında a, i və ə səsinin artımı az da olsa, vardır.

**Sait Səslərin Düşümü**

Ağbaba şivəsində də sait səslərin düşümü əsasən vurğu ilə bağlıdır. Belə ki, vurğu sözün əsasından şəkilçiyə və ya söz birləşərkən birinci sözdən ikinci sözə keçməsi nəticəsində səs düşür (5.68, 69). Səs düşümünə ən çox qapalı səslilər məruz qalır. Sait səslərin düşümü ən çox söz ortasında baş verir. Məsələn:

u səsinin düşməsi: hökumət-hökmət, qoyuna-qoyna, qoyulur-qoylur, quyuya-quyya, yuxuya-yuxya.

i səsinin düşməsi: nəyinə-nəynə, Səkinə-Səhnə, həmişə-həmşə, İsmayıl-Smeyil, inişil-nişil, gətirir-gətrir, əmisi-əmsi, əmioğlu-əmoğlu, mərifət-mərfət, on iki-onki, hər ikisi-hərkisi.

ı səsinin düşməsi: yarılığa-yarlığa, qayıdır-qaydır, başıaşağı-başşağı, yuxarıda-yuxarda, hansı-hası, yarısı-yarsı, yuxarıdan-yuxardan, salamımı-salammı, boyunbağı-boyunbağ, mırıq-mrıx və s.

ü səsinin düşməsi: döyülür-döylör, özümə-özmə, götürür-götrör, bölür-bölör, böyüyür-böyyür, götürür-götrör və s.

ə səsinin düşməsi: necə oldu-necoldu, görərəm-görrəm, döndərərik-döndərrik, ölərəm-ölləm, verərəm-verrəm.

Sait səslərin düşümü qırğız, tuva, başqırd, türkmən və digər türk dillərində də vardır (6.38, 39).

***a) Heca düşümü***

Ağbaba şivəsində bəzi kəndlərin danışığında heca düşümü də mövcuddur. Sözdəki sait səsin düşməsi ilə bəzən bir neçə səs və ya heca düşür. Məsələn: yumurta-murta, Hüseyn-Söyün, dağa-daa, qağa-qaa, sənə-saa, mənə-maa, kəklikotu-kəkotu, şikayət-şikat, təhər-tər, götürdü-götdü, oturdu-otdu, gətirdi-gətdi, yeyirəm-yerəm, ta-daha, gətirdilər-gətdilər, qarğıdalı-qardalı, otursunlar-otusunnar və s. Heca düşümü uyğur, türkmən özbək dillərində də vardır (6.39). Göründüyü kimi, heca düşümü sözün əvvəlində, ortasında və axırında baş verir.

Ağbaba şivəsində digər fonetik hadisələr – karlaşma, cingiltiləşmə və novlaşma da mövcuddur.

***b) Karlaşma***

Digər dialektlərdə olduğu kimi, Ağbaba şivəsində də karlaşma vardır. Məsələn: putax, puxarı, tufar, tustax, kəfşən, Təpriz, qanad-qanat, kənd-kənt, papaq-papax, keç-keş, bulud-bulut və s.

***c) Cingiltiləşmə***

Cingiltiləşmə hadisəsi az və çox halda bütün şivələrdə olduğu kimi, Ağbaba şivəsində də vardır. Məsələn: usta-usda, xəstə-xəsdə, kobut-gobud, dəftər-dəfdər və s.

***d) Novlaşma***

Ağ¬baba şivəsində çox müşahidə edilən fonetik hadisələrdəndir. Məsələn: savın, qavır, qav, öysürür və s.

## KAYNAKÇA

Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, 2008.
Arpaçay köylərindən dərləmələr. Ankara, 1976.
Bayramov A.Ə. Oğuz elindən, Ozan dilindən. bakı, 2002.
Əsgərov B. Ağbabada qalan izlər. bakı, 2002.
Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı, 2008.
Kərimov Ş. Azərbaycan dilinin Çənbərək və Karvansara şivəsi. Bakı, 1998.